
Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 201 (21.862)
24 oktyabr 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az
Qiyməti 20 qəpik

## Kəngərli rayonunda yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib





Meliorasiya və irriqasiya tədbirlərinin davamlı olaraq həyata keçirilməsi, mütərəqqi suvarma metodlarının tətbiqi muxtar respublikada əkinçiliyin inkişafı üçün geniş imkanlar açır. Su təminatı olmayan və uzun müddət əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatılır.

Oktyabrın 23-də Kəngərli rayonunun Böyükdüz kəndində qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikada şoranlaşma və bataqlaşmanın qarşısının alınması, suvarma şəbəkələrinin genişləndirilməsi və mütərəqqi suvarma metodlarının tətbiqi bol məhsul istehsalı ilə yanaşı, torpaq və su ehtiyatlarından səmərəli istifadəyə də imkan verir. Qapalı suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Son illər Babək və Culfa rayonlarında 2220, Kəngərli rayonunda isə 717 hektar sahədə qapalı suvarma şəbəkəsi qurulmuşdur. Bu gün isə Kəngərli rayonunun Böyükdüz kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilir. Əsgər Əsgərov əkin sahələrinin su təminatının və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması istiqamətində bundan sonra da səylə çalışacaqlarını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsini muxtar respublikanın həyatında əlamətdar hadisə kimi dəyərləndirmiş, bu münasibətlə istifadəçiləri təbrik edərək demişdir: Naxçıvan Muxtar Respublikasının ərazisinin 16 faizi əkinəyararlı torpaqlardır. Əkinəyararlı torpaqların isə 10 faizə yaxını suvarılan ərazilərdir. Ona görə də əkinəyararlı torpaqlardan səmərəli istifadə olunması və yeni suvarma şəbəkələrinin qurulması mühüm əhəmiyyət daşıyır. Artıq muxtar respublikada mütərəqqi suvarma metodları tətbiq olunur, qapalı suvarma şəbəkələri qurulur, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Son 5 ildə muxtar respublikada 3 min hektara yaxın sahədə qapalı suvarma şəbəkəsi quraraq istifadəyə verilmişdir. Hazırda bu ərazilərdən bol məhsul götürülür. Bu gün istifadəyə verilən qapalı suvarma şəbəkəsi hesabına isə 407 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Əkin dövriyyəsinə qatılan yeni torpaq sahələrinin əkilməsi qapalı suvarma şəbəkəsinin qurulmasına sərf olunan vəsaitin 8-10 il müddətində geri qaytarılmasına imkan verəcəkdir.



Ali Məclisin Sədri demişdir: Qapalı suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması vacib məsələdir. Çünki muxtar respublika əhalisinin sayı ilbəil artır, həyətyanı torpaq sahələrində evlər tikilir. Bu da ərzaq təhlükəsizliyinin təmin olunması üçün yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasını zəruri edir. Qapalı suvarma şəbəkəsinin əhatə etdiyi ərazi uzun müddətdir əkilməyən münbit torpaqlardır. Su təminatından sonra bu ərazilərin əkilməsi muxtar respublikada kənd təsərrüfatının inkişafına öz töhfəsini verəcəkdir. Torpağa həyat vermək, onu əkin dövriyyəsinə qaytarmaq xeyirxah işdir. Eyni zamanda bu, insanlara həyat vermək deməkdir. Çünki bol məhsul istehsalı muxtar respublika iqtisadiyyatının inkişafı ilə yanaşı, həm də əhalinin ərzaqla təminatının yaxşılaşdırılmasına xidmət edir.

Ali Məclisin Sədri demişdir: Mütərəqqi suvarma metodlarının tətbiqi, qapalı suvarma şəbəkələrinin qurulması, nasos stansiyalarının tikilməsi, torpaqların su təminatının yaxşılaşdırılması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi bu gün qarşıda duran əsas vəzifələrdir. Bu vəzifələrin həyata keçirilməsi üçün Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə lazımi şərait yaradılmış, maddi-texniki baza gücləndirilmişdir. Eyni zamanda muxtar respublikada əkinəyararlı torpaqların atlasının hazırlanması şoranlaşmaya və çəmənləşməyə meyilli torpaq sahələrinin müəyyən edilməsinə, meliorativ tədbirlərin həyata keçirilməsinə və drenaj şəbəkələrinin qurulmasına imkan verir.

Ali Məclisin Sədri meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdirilməsinin vacibliyini vurğulamış, qapalı suvarma şəbəkəsinin qurulmasında əməyi olanlara təşəkkür etmiş, onları qiymətli hədiyyələrlə mükafatlandırmış, suvarma şəbəkəsinin baş planı ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, qapalı suvarma şəbəkəsinin tikintisi yerli mütəxəssislər tərəfindən qısa müddətdə və keyfiyyətlə aparılmışdır. Böyükdüz kəndi ərazisində yerləşən və Araz çayından qidalanan hovuzlardan su öz axını ilə uzunluğu 2 min 700 metr olan magistral boru xətti vasitəsilə qapalı suvarma şəbəkəsinə ötürülür. Ərazidə müxtəlif diametrli borularla 4380 metr uzunluğunda ana xətt çəkilmiş, deformasiyaların qarşısını almaq məqsədilə ana xəttin üzərində 13 kompensator və 2 siyirtmə quraşdırılmışdır. Ana xəttin dayanıqlığını artırmaq məqsədilə borunun yeri 40 santimetr qazılaraq çınqıl qatı verilmiş, birləşmə olan hissələrə 520 ədəd beton dayaq qoyulmuş, boru yarıya qədər torpaqla doldurulmuşdur.

Ərazidə diametri 200 millimetr olan plastik borularla 41 min 680 metr uzunluğunda paylayıcı xətt çəkilmiş və üzərində 480 suvarma hidrantı, sahəyə suyun verilməsini növbə ilə təmin etmək üçün 91 siyirtmə, xətdəki suyun boşaldılması üçün 93 suboşaldıcı quraşdırılmışdır. Torpağın yuyulmasının qarşısını almaq məqsədilə hidrantların ətrafına çınqıl qatı verilmiş, beton hovuzlar qoyulmuşdur. Magistral xəttin üzərində diametri 50 millimetr olan 27 ədəd subaraxıcı quraşdırılmışdır.

Ali Məclisin Sədri Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində layihə işlərinin aparılması və yeni qapalı suvarma şəbəkəsinin qurulması barədə tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsini bildirən qurğunu işə salmışdır.



## Muxtar respublikada payızlıq taxıl əkini aparılır

Oktyabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Bərəkət Buğda Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Kəngərli rayonunun Böyükdüz kəndindəki toxumçuluq təsərrüfatının taxıl əkini sahəsinə gəlmiş, taxıl əkininin gedişi ilə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev məlumat verərək demişdir ki, muxtar respublikada bu günə qədər 20 min hektar sahədə şum, 7 min hektar sahədə isə əkin aparılmışdır. Dağlıq ərazilərdə isə 850 hektar sahədə dəmyə taxıl əkilmişdir. “Bərəkət Buğda Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin toxumçuluq təsərrüfatı taxıl əkini zamanı toxuma olan tələbatı tam ödəyir. Hazırda toxumçuluq təsərrüfatının qapalı suvarma şəbəkəsi qurulan 530 hektar taxıl sahəsində əkin başa çatdırılmışdır. Əkin zamanı yüksək reproduksiyalı, muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğunlaşmış məhsuldar “Qobustan” toxum sortundan istifadə olunur.

Ardı 2-ci səhifədə

Muxtar respublikada payızlıq şum və əkin aparılması üçün texnikalar da saz vəziyyətə gətirilmiş, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus və fiziki şəxslərdə olan 99 taxılsəpən sahələrə çıxarılmış, torpaq mülkiyyətçiləri mineral gübrə ilə təmin edilmişdir.

Ali Məclisin Sədri payızlıq taxıl əkininin aqrotexniki qaydalara uyğun aparılmasının vacibliyini vurğulamış, noyabrın 1-dən etibarən payız suvarma mövsümünə başlanması, toxumçuluq təsərrüfatında taxılla yanaşı, digər kənd təsərrüfatı bitkilərinin əkilməsi və toxuma olan tələbatın yerli istehsal hesabına ödənilməsi, payız iməcilikləri dövründə Kəngərli rayonunda yeni badam bağlarının salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Tbilisidə siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun gürcü dilində çap edilən "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabının təqdimatı olub

***Tbilisi Dövlət Universitetində Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Rza Talıbovun gürcü dilində çapdan çıxan "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabının təqdimatı keçirilib.***






Azərbaycanın bu ölkədəki səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbir Azərbaycanla Gürcüstan arasında diplomatik münasibətlərin 25 illiyinə həsr olunub.

Universitetin prorektoru Mixeil Çxenkeli ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf etdiyini, bu cür kitabların elm və təhsil sahəsində münasibətlərimizin inkişafında mühüm rol oynadığını diqqətə çatdırıb, "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabının sanballı tədqiqat əsəri və tədris vəsaiti olduğunu bildirib.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov çıxışında iki ölkə arasındakı qədim dostluq əlaqələrindən danışıb, ümummilli lider Heydər Əliyevin səyi nəticəsində münasibətlərin yeni müstəvidə daha da inkişaf etdiyini vurğulayıb. O bildirib ki, Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Səfir iki ölkə arasında diplomatik münasibətlərin 25-ci ildönümü ərəfəsində bu cür tədbirlərin keçirilməsinin, Azərbaycan və Gürcüstan alimlərinin əsərlərinin hər iki dilə tərcümə olunmasının vacibliyini qeyd edib.

Kitabın tərcüməçisi, professor Cabuki Kiriam, tarixçi-alim, professor Quram Marxuliya və başqaları çıxış edərək əsərin elmi əhəmiyyətindən danışıblar. Bildirilib ki, Rza Talıbovun "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" kitabı qitə ölkələrinin dünya siyasətində və beynəlxalq xarici əlaqələrdəki yerinin və əhəmiyyətinin, həm də Azərbaycanla əlaqələrinin dərindən tədqiq və təhlil edildiyi yüksək elmi-təcrübi əhəmiyyətə malikdir. Əsər müasir siyasi elmin uğurlarından biri olmaqla, həm də beynəlxalq münasibətlər ixtisasında təhsil alan tələbələr, tədqiqatçılar, siyasətçilər, gənc müəllimlər üçün faydalı mənbədir.

Qeyd edək ki, Azərbaycan Təhsil Nazirliyinin dərslik kimi təsdiq etdiyi "Asiya ölkələri beynəlxalq münasibətlər sistemində" adlı kitab ali məktəblərdə dərslik kimi istifadə olunur. Həmçinin kitab MDB ölkələrinin bir çoxunun ali məktəblərində də tədris olunur.

**Naxcivantv.az**

## Nəqliyyat sektoru inkişaf edir

Muxtar respublikada avtomobil nəqliyyatı infrastrukturunun müasir standartlar səviyyəsinə çatdırılması, mülkiyyət növündən asılı olmayaraq, nəqliyyat sahəsinə daxil olan qurumların fəaliyyətinin günün tələblərinə uyğun qurulması və səmərəliliyinin artırılması sahəsində işlər davam etdirilir. Bu ilin 9 ayı ərzində muxtar respublika əhalisinə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

Hesabat dövrü ərzində daşımalarla məşğul olan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi üçün aid şəxslər arasında söhbətlər aparılmış, ayda bir dəfə Naxçıvan Şəhər Nəqliyyat İdarəsində muxtar respublikada sərnişin daşımalarını yerinə yetirən sürücülərin iştirakı ilə seminar-müşavirələr təşkil edilmiş, qarşıya qoyulan vəzifələr geniş müzakirə olunmuşdur. Sürücülərin muzeylərlə tanışlığına diqqət daha da artırılmış, muzeylərdə taksi sürücülərinin seminar məlumatlandırılması işinə avtobus sürücüləri də cəlb olunmuşlar.

İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə 2017-ci ilin 9 ayı ərzində Naxçıvandan Bakıya 16 min 697, Bakıdan Naxçıvana isə 18 min 22 sərnişin daşınmışdır.

Muxtar respublika Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar avqustun 26-da keçirilən müşavirədə verilən tapşırıqların icrası diqqət mərkəzində saxlanılmış, sərnişindaşıma fəaliyyəti göstərən avtobus və taksilərin texniki müayinəsi keçirilmiş, fəaliyyətdə olan 135 marşrut xəttində 298 ədəd avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmişdir. Həmçinin payız-qış aylarında avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınması, marşrut qrafikinə nəzarət olunması məqsədilə yeni nəsil texnologiyalarından istifadə edilməsi davam etdirilməkdədir. Belə ki, Naxtel-4G GPS monitorinq izləmə sistemi Naxçıvan-Bakı marşrutunda işləyən avtobuslarda quraşdırılmışdır. Naxçıvan şəhərdaxili marşrutunda işləyən avtobuslara və taksilərə isə GPS-lərin quraşdırılması işi davam etdirilir.

**Naxçıvan Muxtar Respublikası**
**Nəqliyyat Nazirliyinin**
**mətbuat xidməti**

***"Naxçıvanqaz" İstehsalat Birliyi mütəmadi olaraq təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılması istiqamətində tədbirlər həyata keçirir. İstehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi məqsədilə bu ilin 9 ayı ərzində də qarşıda duran vəzifələr uğurla yerinə yetirilmişdir.***

## "Naxçıvanqaz" İstehsalat Birliyi işini günün tələblərinə uyğun qurub

Muxtar respublikada ötən dövrdə daxil olan müraciətlərə əsasən 513 mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 479-u əhali abonenti, 34-ü isə qeyri-əhali abonentidir.

Muxtar respublikada təbii qaz istehlakçılarının fasiləsiz, təhlükəsiz qazla təchiz olunması məqsədilə korroziyaya uğrayan yeraltı qaz kəmərlərinin yeniləri ilə dəyişdirilməsi və qaz sızmalarının aradan qaldırılması təmin edilmiş, bu işlərin mütəmadi olaraq aparılması nəzarətə götürülmüşdür. Naxçıvan şəhərində smartkart-tipli qaz sayğaclarının quraşdırılması işləri davam etdirilmiş və cari ilin 9 ayında 1995 qaz sayğacı quraşdırılmışdır. "Naxçıvanqaz" İstehsalat Birliyi yerlərdə nəzarət tədbirlərini gücləndirmiş, vaxtaşırı birliyin daimi fəaliyyət göstərən yoxlama-nəzarət komissiyası tərəfindən reydlər keçirilərək istehlakçıların qazdan istifadə qaydalarının tələblərinə riayət etmələri yoxlanılmış və ortaya çıxan nöqsanlar aradan qaldırılmışdır.

Qış aylarında təbii qaza olan tələbatın artması ilə qaz nəqli sisteminin daha artıq yüklənməsi və gərgin işləməsi nəzərə alınaraq bütün sistem boyu qaz kəmərlərinə qazanalizatorlarla xətti nəzarət və əlavə olaraq texniki baxış keçirilmiş, ortaya çıxan texniki nasazlıq aradan qaldırılmışdır. Birlik üzrə maşın, mexanizmlər, qaynaq avadanlıqlarının və digər texniki avadanlıqların, qurğuların texniki vəziyyəti yoxlanılmış, çətin hava şəraitində etibarlı işləməsi üçün tam yararlı vəziyyətə gətirilmişdir. 2017-ci ilin ötən dövründə muxtar respublika qaz şəbəkəsində 13 min 23 ədəd sızma aşkarlanaraq aradan qaldırılmış, yeni qaz boru xətlərinin quraşdırılması, yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar 116 min 865 paqonometr borudan istifadə olunmuşdur.

**"Naxçıvanqaz" İstehsalat Birliyinin**
**mətbuat xidməti**

*Müasirləşən kəndlərimiz*

## Üstüpü kəndi də müasirliyə qovuşur

***Bu gün muxtar respublikamızda ulu öndər Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi nəticəsində bölgəmiz başdan-başa gülüstana dönübdür. Bunu bağlar diyarı Ordubad rayonunun timsalında da görmək olar. Belə ki, bu qədim yurd yeri son illər muxtar respublikada həyata keçirilən kompleks quruculuq tədbirləri hesabına müasir Azərbaycan rayonunun canlı nümunəsinə çevrilib. Ordubadda belə tədbirlər hazırda da davam etdirilir.***

Cari ildə isə rayonun Üstüpü kəndində tikinti-quruculuq tədbirləri aparılır. Əvvəlcə onu qeyd edək ki, bu yaşayış məntəqəsi, eləcə də Üstüpü kənd inzibati ərazi dairəsinə daxil olan Məzrə kəndi rayonun ən səfalı guşələrindəndir. Rayon mərkəzindən 36-40 kilometr şimal-qərbdə yerləşən bu yurd yerlərini Ordubad rayonunun digər yaşayış məskənlərindən fərqləndirən əsas cəhət sözügedən hər iki kəndin ən məhsuldar torpaqlarda yerləşməsi və əlverişli iqlim şəraitinə malik olmasıdır. Etiraf edilməlidir ki, ordubadlılar kənd təsərrüfatı məhsullarını almaq üçün bazara gedərkən min bir dərdin dərmanı olan balın, eləcə də kartofun, kələmin, lobyanın, cəvizin Üstüpü və Məzrə kəndlərində yetişdirilib-yetişdirilmədiyi ilə maraqlanırlar. Belə ki, Üstüpü və Məzrə kəndlərində yetişdirilən belə məhsullar öz dadtamı ilə şöhrət tapıb.

Bu günlərdə biz də Üstüpü kəndində olduq. Ordubad-Naxçıvan magistral avtomobil yolunun Düylün kəndi istiqamətində yenilik ab-havasını duymağa başladıq. Belə ki, Düylün kəndindən Məzrəyədək olan avtomobil yolu yenidən qurulurdu. Culfa Rayon Yol Təmir-İstismar İdarəsinin rəisi Yaşar İbrahimovdan öyrəndik ki, 20 kilometr uzunluğunda sərt qayalıqlar arası ilə çəkilən yolun eni 7 metrdir. Bu yolun artıq birinci qat asfaltlaşdırılma işi başa çatdırılıb. Hazırda yolun ikinci asfalt qatı salınır. Yol çəkilərkən bir çox yerlərdə istinad divarları ucaldılıb, qar və yağış sularının axıb getməsi üçün suayırıcı kanallar salınıb, 10 körpüdə əsaslı surətdə yenidənqurma işləri aparılıb.



Ucqar dağ kəndi olan Üstüpüdə isə bir neçə aydır ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları tam orta məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikintisi ilə məşğuldurlar. 340 şagird yerlik məktəb binasının bir korpusu zirzəmi ilə birlikdə dörd mərtəbədən, iki korpusu isə üç mərtəbədən ibarətdir. İdarə rəisi Əkrəm Salmanovun sözlərinə görə, yeni məktəb binasında kimya, biologiya və fizika laboratoriyaları, elektron lövhəli sinif, kompüter otağı, hərbi və şahmat kabinələri, işıqlı sinif otaqları, idman zalı və bufet yerləşəcəkdir. Hazırda binanın daxilində suvaq işləri aparılır.

Kənd mərkəzi isə üçmərtəbəlidir. Burada da əsas tikinti işləri başa çatdırılıb, qapı və pəncərələr salınıb, kommunikasiya xətləri çəkilib.

İnşası davam edən xidmət mərkəzi isə birmərtəbəli olmaqla, burada sənaye və təsərrüfat malları mağazaları, bir neçə xidmət sahəsi fəaliyyət göstərəcəkdir.

Binanın ətrafını gəzərkən bir qrup inşaatçının yaxınlıqdakı sahənin abadlaşdırılması işi ilə məşğul olduğunu gördük. Öyrəndik ki, hazırda burada meyvə ağacları əkiləcək sahənin hamarlanması və daş-çınqıldan təmizlənməsi işləri aparılır.

Üstüpüdən ayrılarkən Düylün kəndi ərazisində də inşaat işlərinin getdiyinin şahidi olduq. Öyrəndik ki, kənddə xidmət məkəzi üçün bina tikilir. Son illər Düylün kəndində digər infrastruktur layihələri gerçəkləşdirilsə də, xidmət mərkəzinə ehtiyac var idi.

Yazımızda Ordubad Rayon Qaz İstismar İdarəsinin, Elektrik Şəbəkəsinin və Rabitə İdarəsinin kollektivlərinin gördükləri işlərdən də söhbət açmaq istərdik. Avtomobil yolunun genişləndirilməsi və yeni inşa olunan binalara kommunikasiya xətlərinin çəkilməsi ilə əlaqədar bu idarələrin kollektivləri də səylə çalışırlar.

Yaxın günlərdə abadlaşan, gündən-günə gözəlləşən Ordubadın simasında daha bir yeniliyin şahidi olacağıq. Belə ki, rayonun yeniləşən yaşayış məntəqələrinin sırasına Üstüpü kəndi də daxil olacaq.

**Abbas SEYİD**

*24 oktyabr Hüseyn Cavid Poeziya Günüdür*

# Zəmanəsinin sərhədlərini aşan sənətkar

***Bu gün Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən olan şair-dramaturq Hüseyn Cavidin anadan olmasından 135 il ötür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş “Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”na əsasən hər il oktyabrın 24-ü Naxçıvan Muxtar Respublikasında “Hüseyn Cavid Poeziya Günü” kimi qeyd edilir.***



Hüseyn Cavid ilk təhsilini Naxçıvan şəhərindəki mollaxanada almış, ərəb-fars dillərini öyrənmiş, Şərq ədəbiyyatına dair ilkin biliklər əldə etmişdir. Sonra Naxçıvanda M.T.Sidqinin təşəbbüsü ilə açılmış “Tərbiyə” məktəbində təhsilini davam etdirən Hüseyn Cavid burada dünyəvi elmlərə yiyələnmiş, “Gülçin” təxəllüsü ilə ilk şeirlərini yazmağa başlamışdır. O, dünyagörüşünün inkişafında mühüm mərhələ təşkil edən İstanbul Universitetini (1906-1909) bitirdikdən sonra 1909-1910-cu illərdə Naxçıvanda müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. 1911-ci ildə Tiflisə gedən Hüseyn Cavid 1917-ci ilə qədər burada yaşamış, ədəbi-pedaqoji fəaliyyətini davam etdirmişdir. 1918-1919-cu illərdə Naxçıvandakı “Rüşdiyyə” məktəbində dərs demişdir.

Hüseyn Cavid yaradıcılığı boyu nə yazmışdırsa, öz qəlbinin səsi ilə yazmışdır. Ədib deyirdi ki, “Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir”. Şairin yaradıcılıq yolunun ümumi təhlili, obrazlarının bədii kamilliyi və əxlaqi zənginliyi göstərir ki, bu ədəbi etiraf tamamilə doğrudur. Son dərəcə mürəkkəb həyat və yaradıcılıq yolu keçmiş ədibin ilham pərisi daim həqiqət eşqi ilə alovlanmışdır. Həqiqəti axtarıb tapmaq, ona qovuşmaq yolunda tərəddüdlər, şübhələr keçirən şair heç vaxt öz idealından – həqiqətdən ayrılmamış, bütün yaradıcılığı boyu əsərlərindəki hadisələr, romantik obrazlar vasitəsilə onu insanlara aşılamağa, həqiqətin çətin yollarını göstərməyə çalışmışdır. Bütün həyatını bu yüksək amala həsr etmiş böyük sənətkarın bircə arzusu var idi: öz doğma xalqını azad və xoşbəxt görmək, ana Vətənə xidmət etmək. Xalqımızın ümummilli lideri Heydər Əliyev Hüseyn Cavidin yaradıcılığını xarakterizə edərək deyirdi: ***“Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur”.***

Hüseyn Cavid sənəti, görüşləri və yaradıcılıq taleyi baxımından ədəbiyyat tariximizdə özündən əvvəlkilərə və sonrakılara bənzəməyən bir sənətkardır. Sənətkar kimi çox əzəmətli və məğrur, mütəfəkkir şair-dramaturq kimi çox zərif və incəqəlbli, fitri istedad sahibi olan Hüseyn Cavidin yaratdığı obrazlar bənzərsiz və təkrarolunmaz insan xarakterlərinin canlı qalereyasıdır. Şair-dramaturqun “Qız məktəbində”, “Şərq qadını”, “Novruz bayramı”, “Vərəmli qız”, “Dəniz pərisi”, “Get”, “Qonşu çiçəyi”, “Mən istərim ki”, “Görmədim”, “Hərb allahı qarşısında”, “Bir xatirə”, “Qürubə qarşı” kimi şeirləri, “Azər” poeması və “Uçurum”, “Ana”, “Maral”, “Şeyx Sənan”, “Afət”, “Topal Teymur”, “İblis”, “Knyaz”, “Xəyyam”, “Səyavuş”, “Şeyda”, “Peyğəmbər” və başqa monumental əsərləri Azərbaycan romantik ədəbiyyatının qızıl fonduna daxil olmuşdur.

Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı ədası, forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərib. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əks olunub. O, şeiri səhnəyə gətirən ilk Azərbaycan ədibidir. Dahi sənətkarın yaratdığı obrazlar – Şeyx Sənan, İblis, Azər, Əmir Teymur, Xəyyam, Səyavuş, Əfrasiyab və onlarla başqaları bənzərsizliyi, təkrarolunmazlığı və cazibə dairəsi ilə ədəbiyyatımızda əbədiyaşarlıq qazanmışdır. Bu obrazlar həyat və insan, zaman və mühit, ideya və fikirlərin çarpışması fonunda dünya haqqında mükəmməl təsəvvür yaratdığı üçün əbədidir.

Hüseyn Cavid 1937-ci ilin iyun ayında “gizli millətçi əks-inqilabi təşkilat”da iştirakı bəhanəsi ilə səkkizillik həbs cəzasına məhkum edilmişdir. O, 1938-1940-cı illərdə keçmiş SSRİ ərazisindəki ən uzaq və ən soyuq həbs düşərgəsi olan Maqadan şəhərində sürgündə olmuşdur. 5 dekabr 1941-ci ildə Sibirdəki Tayşet rayonunun Şevçenko qəsəbəsində sürgündə ikən vəfat edən Hüseyn Cavid şəxsiyyəti və yaradıcılığı, ona verilən yüksək qiymət haqqında düşünərkən böyük sənətkarın mərhum qızı Turan xanımın dediyi belə bir fikir yada düşür: *“Atama əsl bəraəti 1981-ci il iyul ayında “Hüseyn Cavidin 100 illiyi haqqında” qərardan sonra hesab edirəm. Bu, ədalətin zəfər çalması idi. Bunun üçün, birinci növbədə, mən Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə minnətdaram”.*



Ümummilli liderimizin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən bu qərar dahi şair və dramaturqa dövlət səviyyəsində verilən yüksək qiymətin parlaq nümunəsi kimi mədəniyyət və ədəbiyyat tariximizdə mühüm hadisə idi. Ümummilli lider Heydər Əliyev çox böyük cəsarət tələb edən addım atmış, Cavidin cənazəsi 1982-ci ildə Uzaq Sibirdən Bakıya, noyabrın 2-də Naxçıvana gətirilmişdir. Bu fakt keçmiş Sovetlər Birliyi məkanında repressiya olunmuş şəxsə dövlət səviyyəsində göstərilmiş münasibətin yeganə cəsarətli nümunəsidir. Ötən əsrin 70-ci illərindən başlayaraq Cavidin əsərlərinin nəşrinə başlanmış, rus dilində 2 cildliyi işıq üzü görmüşdür. Azərbaycanın şəhər və rayonlarında böyük ədibin yubiley tədbirləri təşkil olunmuş, əsərləri respublikamızın teatrlarında səhnəyə qoyulmuş, adına küçələr, məktəblər, kitabxanalar verilmişdir.

1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. O vaxt ümummilli lider Heydər Əliyev Naxçıvanda Ali Məclisin Sədri işləyərkən yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış etmiş, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevi Cavid şəxsiyyətinə, irsinə, ailəsinə diqqət və qayğı həmişə düşündürürdü. 1995-ci il iyunun 10-da ulu öndərimiz Heydər Əliyevin yanında keçirilmiş müşavirədə görkəmli şair-dramaturq Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı məsələlər geniş müzakirə olunmuşdur.

Ulu öndərin ən böyük arzularından biri 1996-cı il oktyabrın 29-da həyata keçmişdir. Həmin gün Naxçıvanda böyük sənətkarın məqbərəsinin təntənəli açılışı olmuşdur. Təntənəli mərasimdə geniş nitq söyləyən ümummilli liderimiz böyük sənətkara yüksək qiymət verərək deyirdi: ***“Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün, gələcək nəsillər üçün dərslik kitabıdır”.***

Azərbaycanda Hüseyn Cavidin yubileylərinin keçirilməsi, əsl poeziya bayramlarına çevrilməsi sənət və sənətkara ulu öndərin verdiyi qiymətin nəticəsidir. Bu yubileylərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. “Cavid ömrü boyu” salnaməsinin hazırlanması, əsərlərinin kütləvi tirajla nəşr olunması, sənədli filmlərin çəkilməsi, televiziya tamaşalarının hazırlanması, pyeslərinin ölkəmizin müxtəlif teatrlarında səhnəyə qoyulması da Hüseyn Cavid irsinə qayğının bir hissəsidir. Son illər Hüseyn Cavid haqqında çoxsaylı tədqiqat əsərlərinin, monoqrafiyaların yazılması böyük sənətkarın yaradıcılığına marağın göstəricisidir.

Zaman keçdikcə Hüseyn Cavid irsinə maraq daha da artır. Ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci ildə imzaladığı “Hüseyn Cavidin 125 illik yubileyi haqqında” Sərəncam, eləcə də “Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında” 2012-ci il 16 fevral tarixli Sərəncamı Hüseyn Cavid yaradıcılığına göstərilən növbəti dövlət qayğısıdır. Sərəncamda deyilir: ***“Hüseyn Cavid dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Sənətkarın dünya romantizmi ənənələri zəminində bəşəriyyətin mənəvi həyatı ilə bağlı axtarışlarının ifadəsi olan lirik əsərləri, mənzum faciə və tarixi dramları qiymətli söz inciləri kimi xalqımızın zəngin fikir xəzinəsində layiqli yer tutur”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 20 fevral tarixli Sərəncamı ilə “Hüseyn Cavidin 130 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilmişdir. Tədbirlər Planına əsasən Hüseyn Cavidin 130 illik yubileyi ilə əlaqədar simpozium keçirilmiş, Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Şeyx Sənan” əsəri səhnəyə qoyulmuş, “Naxçıvan” jurnalının bir nömrəsi ədibin yubileyinə həsr olunmuş, silsilə tədbirlər keçirilmişdir. AMEA-nın Naxçıvan Bölməsində, ali təhsil ocaqlarında, mədəniyyət müəssisələrində elmi konfranslar təşkil olunmuş, kütləvi informasiya vasitələrində böyük ədibin həyat və yaradıcılığı işıqlandırılmışdır.

Hüseyn Cavid sənəti və şəxsiyyəti bu gün də yaşayır. Hüseyn Cavidin 135 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Musiqili Dram Teatrının 135-ci mövsümündə görkəmli ədibin “İblis” faciəsi əsasında tamaşa hazırlanmışdır. Bütün bunlar bir daha onu göstərir ki, Hüseyn Cavid yaradıcılığının öyrənilməsi və təbliği onun doğulub boya-başa çatdığı Naxçıvanda diqqət mərkəzindədir.

Hüseyn Cavid sənəti hər bir insanın dünyasını daxilən mükəmməlləşdirən və zənginləşdirən söz gülüstanıdır. İnsan qəlbini saflaşdıran, insan fikrini ucaldan, könül dünyasını yüksəldən sənət isə həmişə əbədiyaşardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Hüseyn Cavid nə yazmışsa, Azərbaycan üçün, Azərbaycan oxucusu üçün, Azərbaycan xalqı üçün yazmışdır. Millilik, vətənçilik, Azərbaycançılıq onun yaradıcılığının ruhunda və qanındadır. Cavidin şeir dili təmiz Azərbaycan-türk dilidir. Hüseyn Cavid əsərlərinin mövzusunun və qəhrəmanının hansı dövrü və ya hansı mühiti təmsil etməsindən asılı olmayaraq, bu əsərlərdə irəli sürülən ideyalar, birinci növbədə, azərbaycanlı oxucunun özünü dərk etməsinə, vətən tarixini, onun milli dəyərlərini öyrənməsinə, mədəni irsə sahib çıxmasına yönəlmişdir”.***

# Mədəni-kütləvi tədbirlərin təşkilinə, turizm potensialımızın təbliğinə diqqət artıb

***Bu ilin 9 ayı ərzində muxtar respublikanın mədəniyyət müəssisələrində görkəmli şəxsiyyətlərin yubileyləri ilə əlaqədar konfrans, dəyirmi masalar, yığıncaq və tematik sərgilər keçirilib, teatr tamaşaları, ədəbi-bədii kompozisiyalar, konsertlər təqdim edilib.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Oxunması zəruri olan kitablar haqqında” 2017-ci il 28 avqust tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində kitabxanalarda müvafiq kitablardan ibarət guşələr yaradılıb. Bu dövrdə kitabxanalara 214 adda 11 min 146 nüsxə çap məhsulu verilib.

Muzeylərin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması işi də diqqət mərkəzində saxlanılıb, muzeylərə 993 yeni eksponat daxil olub. Yanvar-sentyabr aylarında muzeyləri 217 min 639 nəfər tamaşaçı ziyarət edib, muzeylərdə 258 açıq dərs keçilib. Bəhs olunan dövrdə Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Onun iki qabırğası” və M.Meterlinkin “Göy quş”, Naxçıvan Dövlət Kukla Teatrında A.Salmanlının “Niyyət açarı”, K.Ağayevanın “Göyçək Fatma” və Ə.Abbasovun “Keçinin qisası”, Naxçıvan Dövlət Uşaq Teatrında A.S.Ekzüperinin “Balaca şahzadə” və məhdud fiziki imkanlı uşaqlarla B.İsgəndərlinin “Özgəsinə quyu qazan” tamaşaları hazırlanaraq teatrsevərlərə təqdim edilib. Ordubad Rayon Xalq Teatrının kollektivi Rəşid bəy Əfəndiyevin “Saqqalın kəraməti”, Babək Rayon Xalq Teatrının kollektivi isə B.Vahabzadənin “Yollara iz düşür” əsərləri əsasında tamaşalar hazırlayıb və teatrsevərlərə təqdim ediblər.

İyun-sentyabr aylarında əhalinin yay istirahətinin təşkili məqsədilə Naxçıvan şəhərinin park və meydanlarında əhaliyə 10 konsert proqramı təqdim edilib. Naxçıvan Dövlət Film Fondu isə “Azərbaycan kinosu günü” layihəsi çərçivəsində muxtar respublikanın rayonlarında 10 film nümayiş etdirib. Bundan başqa, film fondunun nəzdində yaradılmış kinoklub tərəfindən “Özfəaliyyət dram dərnəklərinin muxtar respublika baxış-müsabiqəsi” və ümumtəhsil məktəblərinin 5-8-ci sinif şagirdləri arasında kinoviktorina keçirilib.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytının yenilənməsi və yeni reklam-informasiya materiallarının hazırlanması işi davam etdirilib, ötən dövr ərzində mərkəzə muxtar respublika və ölkənin müxtəlif bölgələri ilə yanaşı, İran, Türkiyə, Almaniya, Slovakiya, Avstriya, Rusiya, Malayziya, Böyük Britaniya, Fransa, Çexiya, Nigeriya, Rumıniya və İtaliyadan müraciətlər daxil olub. Mərkəzin internet səhifəsinə 92 min 494 baxış sayı olub və ümumilikdə, 112 min 154 baxış qeydə alınıb. Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən turizm potensialını əks etdirən videoçarxların internetdə yerləşdirilməsi təmin edilib və mərkəzin “Youtube” kanalına 350-dən çox məlumat – videoçarx daxil edilib, 292 min 913 baxış sayı qeydə alınıb. Ümumdünya Turizm Günü münasibətilə təşkil edilən “Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik!” adlı internet-aksiyada isə 9 minə yaxın paylaşım edilib, paylaşılan materiallara 90 mindən çox baxış sayı qeydə alınıb.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**

*Naxçıvan Dövlət Uşaq Filarmoniyasının xalq çalğı alətləri ansamblı və solistləri Naxçıvan şəhərindəki 2 nömrəli Təqaüdçülər Klubunda konsert proqramı ilə çıxış ediblər.*

## Konsert təşkil edilib

Əvvəlcə Naxçıvan Dövlət Uşaq Filarmoniyasının direktoru Ariz Ağayev çıxış edərək muxtar respublikada ahıllara, təqaüdçülərə göstərilən diqqət və qayğıdan bəhs edib. Bildirilib ki, muxtar respublikada sakinlərin asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. Bu günlərdə Naxçıvan şəhərindəki 2 nömrəli Təqaüdçülər Klubunun binasının yenidən qurularaq istifadəyə verilməsi də bunun bariz nümunəsidir.

Vurğulanıb ki, Naxçıvan Dövlət Uşaq Filarmoniyası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılıb. Muxtar respublika rəhbərinin bu sərəncamı istedadlı uşaqların yaradıcılıq potensialından daha səmərəli istifadə olunması və milli musiqi ənənələrimizin gələcək nəsillərə çatdırılması istiqamətində atılan mühüm addımdır. Filarmoniyanın əsaslı fəaliyyətinə hərtərəfli şərait yaradılıb, musiqi alətləri, xüsusi geyim dəstləri alınıb, buraya musiqi qabiliyyəti olan uşaqlar cəlb ediliblər.

Sonra konsert proqramının təqdimatı olub. Filarmoniyanın xalq çalğı alətləri ansamblı və solistlərinin ifalarında səsləndirilən “Çahargah rəngi”, “Güləbətin”, “Gülə-gülə”, “Azərbaycan”, “Bayatı-şiraz”, “Simayi-şəms” və digər muğam, təsnif, xalq mahnıları və bəstəkar musiqiləri təqaüdçülər tərəfindən maraqla qarşılanıb.

Sonda klubun direktoru Mirvasif Seyidov çıxış edərək bu gün muxtar respublikada bütün təbəqələrdən olan insanların rahat yaşayışlarının və asudə vaxtlarının səmərəli təşkilinin diqqət mərkəzində olduğunu deyib. Yeni istifadəyə verilən bu binada şəhərimizin yaşlı sakinlərinin mədəni istirahətlərinin təşkili üçün bütün imkanlar var. Klub müdiri bugünkü tədbirə görə minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Seminar-müşavirə olub

Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində sərnişindaşıma xidməti ilə məşğul olan sürücülər üçün seminar-müşavirə keçirilib.



Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin şöbə müdirləri Yasin Əliyevin, Elxan Novruzovun, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədovun və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşı Cəfər Zamanovun çıxışları olub.

Çıxışlarda bildirilib ki, muxtar respublika Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar avqustun 26-da keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı bir sıra işlər görülüb. İlk növbədə, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki bir daha nəzərdən keçirilib, qrafiklər daha da təkmilləşdirilib. Xətlərə çıxan avtobus və taksilərin Daxili İşlər Nazirliyi ilə birlikdə texniki müayinələri təşkil olunub. Müəyyən edilən nasazlıqlar aradan qaldırılıb, avtobus sürücülərinə lazımi köməkliklər göstərilib.

Qeyd edilib ki, sərnişin və yük daşınmaları ilə məşğul olan sürücülərin başlıca vəzifələrindən biri də avtomobillərini vaxtında texniki müayinədən keçirməkdir. Bu məqsədlə müntəzəm olaraq reydlər təşkil edilib, avtonəqliyyat vasitələrinin təmizliyinə, sürücülərin geyim formasına, marşrutlarda hərəkət qrafikinə nəzarət artırılıb. Qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitəsi sahibləri aşkar edilib, intizama tabe olmayan 66 nəfərin siyahısı tədbir görülməsi üçün muxtar respublika Daxili İşlər Nazirliyinə göndərilib.

Sentyabr ayı ərzində müəyyən olunmuş qaydalara əməl etməyən 9 taksi sürücüsü haqqında müvafiq tədbirlər görülüb və onların fəaliyyəti 4 gün müddətinə dayandırılıb.

**✍ Nail ƏSGƏROV**

## Cüdo üzrə seminar və birincilik keçirilib

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Cüdo Federasiyası və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının birgə təşkilatçılığı ilə məşqçilər və idmançılar üçün seminar keçirilib.*



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən seminara muxtar respublikanın perspektivli cüdoçuları və məşqçi-müəllimlər qatılıblar. Seminarda Azərbaycan Respublikasının ilk olimpiya çempionu Nazim Hüseynov, Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı, Azərbaycan Cüdo Federasiyasının baş katibinin müavini Sahib İsmayılov, yarışların təşkili və keçirilməsi sektorunun müdiri Ağayar Axundzadə, hakimlər komitəsinin rəhbəri



Fariz Hüseynov, federasiyanın regionlarda cüdonun inkişafı sektorunun müdiri Tərlan Poladov və federasiyanın Naxçıvan Muxtar Respublikası üzrə kuratoru Vüsal Cəfərov iştirak ediblər. Seminarda idmançıların yarışa hazırlıq prosesi, çəki və qidalanmalarına nəzarət barədə təlimatlar verilib, məşqçilərin yarışlarda tələbələrini idarəetmə bacarığı, özünüaparma qaydaları geniş müzakirə olunub. Tədbirdə cüdo idman növündə qəbul edilən yeni qaydalar iştirakçılara nəzəri və praktik olaraq izah edilib.

Eyni zamanda muxtar respublikanın Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi cüdo üzrə Naxçıvan şəhər açıq birinciliyi də keçirilib. Birinciliyin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov bildirib ki, bu idman növünün inkişafı üçün muxtar respublikada hər cür şərait yaradılıb. İdmançılarımız ölkə, eləcə də beynəlxalq arenalarda qazandıqları uğurlarla cüdonun inkişafının daim diqqətdə saxlanıldığını əyani olaraq sübut edirlər.

Azərbaycan Respublikasının ilk idman ustası Sahib İsmayılov çıxışında idmançılar üçün yaradılan şəraitin yüksək səviyyədə olduğunu bildirib. Qeyd edilib ki, cüdonun Naxçıvanda sevilməsinin əsas səbəblərindən biri burada yaradılan şəraitdir. Bundan yararlanmaq və gələcəkdə böyük uğurlar qazanmaq üçün məşqlərə daha ciddi şəkildə yanaşmaq lazımdır.

Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı isə çıxışında vurğulayıb ki, bu yarışda qalib olan idmançılar Tovuz rayonu və Bakı şəhərində keçiriləcək birinciliklərə vəsiqə qazanacaqlar. Həmçinin onlar məşqçiləri və valideynləri ilə birgə gələn il Bakı şəhərində keçiriləcək cüdo üzrə dünya çempionatına tamaşaçı kimi dəvət olunacaqlar.

Müstəqil Azərbaycanın ilk olimpiya çempionu, Cüdo Federasiyasının əməkdaşı Nazim Hüseynov yarışı təşkil edənlərə öz minnətdarlığını bildirərək deyib ki, əsas məqsədimiz Azərbaycanda cüdonun inkişafına nail olmaqdır. Azərbaycan Cüdo Federasiyasının Hakimlər Komitəsinin rəhbəri Fariz Hüseynov, Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov çıxışlarında yarışın mahiyyəti, eləcə də ölkəmizdə və muxtar respublikada idmanın inkişafı istiqamətində görülən işlərdən danışıblar.

Sonra yarışa start verilib. “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında yeniyetmələr (2001-2003, 2004-2006-cı illər) arasında keçirilən birincilikdə Naxçıvan şəhər idmançıları ilə yanaşı, Şərur və Culfa rayon cüdoçuları da mübarizə aparıblar. Açıq birincilikdə 2 yaş qrupunda 18 çəki dərəcəsi üzrə 120-dən çox idmançı qüvvəsini sınayıb.

Nəticəyə əsasən 2001-2003-cü illər təvəllüdlü idmançılar arasında Abbas Məmmədov (46 kiloqram, Culfa), İsmayıl Musayev (50 kiloqram, Naxçıvan), Sənan Hüseynov (55 kiloqram, Culfa), Vüqar Allahverdiyev (60 kiloqram, Naxçıvan), Elsevər Məmmədov (66 kiloqram, Culfa), Elamin Zeynalov (73 kiloqram, Naxçıvan), Emil Quliyev (81 kiloqram, Naxçıvan), Səttar Rəhimli (-90 kiloqram, Naxçıvan), Nihad Əliyev (90 kiloqram, Şərur), 2004-2006-cı illər təvəllüdlü idmançılar arasında isə Cəfər Məmmədli (34 kiloqram, Culfa), Həmzə Rəhimli (38 kiloqram, Naxçıvan), Sənan Cəfərov (42 kiloqram, Naxçıvan), Fuad Əşrəfli (46 kiloqram, Naxçıvan), Murad Hüseynov (50 kiloqram, Culfa), Əli Heydərov (55 kiloqram, Naxçıvan), İsmayıl Abbaslı (60 kiloqram, Naxçıvan), Cəbrayıl Hüseynov (66 kiloqram, Naxçıvan) və İsmayıl Fərəcov (73 kiloqram, Şərur) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Komanda hesabında isə “Naxçıvan” komandası qalib adını qazanıb. “Culfa” komandası ikinci, “Şərur” komandası isə üçüncü olub.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları, Güləş Federasiyasının medalları ilə mükafatlandırılıblar.

## 20 noyabr 2017-ci il tarixdə keçiriləcək hərracda səhmləri satışa çıxarılacaq səhmdar cəmiyyəti haqqında məlumat

| | Səhmdar cəmiyyətin adı, təsis tarixi və sərəncamın nömrəsi | Səhmdar cəmiyyətin hüquqi ünvanı | Nizamnamə kapitalının həcmi (manat) | Buraxılmış səhmlərin ümumi sayı (ədəd) | Bir səhmin nominal qiyməti (manat) | Satışa çıxarılmış səhmlər | | Satışa çıxarılan səhmlərin nominal dəyəri (manat) | Satışa çıxarılan səhmlərin hərrac (satış) qiyməti (manat) | Satış qiymətinin 10%-i həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | Sayı (ədəd) | Nizamnamə kapitalında faizlə | | | |
| 1. | Naxçıvan “Tikinti materialları” Açıq Tipli Səhmdar Cəmiyyəti 16.01.1998 №30 | Babək rayonu, Qarabörk stansiyası | 242002,0 | 121001 | 2,0 | 35325 | 30,02 | 72649,0 | 36324,50 | 3632,45 |

Pul hərracında qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Pul hərracına çıxarılan səhmlərin ilkin satış qiymətinin 10 % məbləğində behi Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin AZ30NABZ12360150000000065944 nömrəli hesabına 15 noyabr 2017-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Naxçıvan şəhəri, Atatürk küçəsi 42) 15 noyabr 2017-ci il tarixə qədər hər gün saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən hərracda iştirak etmək istəyən hüquqi və fiziki şəxslər cəmiyyətin emissiya prospekti (özəlləşdirmə planı) ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər. Auksionda iştirak etmək üçün auksion komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən ödəmə sənədinin surəti;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 20 noyabr 2017-ci il, saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcəkdir.

Əlavə məlumatı auksion komissiyasından ala bilərsiniz.

***Əlaqə telefonları: 545-01-38, 545-02-36.***

## İdmançımız dünya çempionatında bürünc medal qazanıb

Xəbər verdiyimiz kimi, 18-21 oktyabr tarixləri arasında Bakı şəhərində qrappling idman növü üzrə dünya çempionatı keçirilib. Bakı Əl Oyunları Sarayında 33 ölkənin ən güclü idmançılarının mübarizə apardığı mundialda Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının idmançısı da iştirak edib. Uşaq, yeniyetmə, gənclər və veteranlar arasında keçirilən dünya çempionatında Azərbaycan millisinin heyətində naxçıvanlı idmançı Fərid Məhərrəmov 42 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxıb. 12-13 yaşlı idmançıların kateqoriyasında mübarizə aparan idmançımız dünya çempionatının bürünc medalını qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Yaqubova Sona Həsən qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Əliyev İbrahim Şahbaz oğlunun adına olan veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 844